**“Təsdiq edilmişdir”**

**Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi**

**31 iyul 2006-cı il tarixli**

**0144 №-li Əmr**

**Sədr G. Məmmədov**

# Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi Qaydaları

## 1. Ümumi müddəalar.

1.1 Bu Qaydalar “Lotereyalar haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1999-cu il tarixli 161 nömrəli fərmanı (Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli fərmanının redaksiyasında) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında” Əsasnaməyə uyğun olaraq hazırlanmışdır.

1.2 Bu Qaydalar stimullaşdırıcı lotereyaların (bundan sonra - lotereya) təşkilini və keçirilməsini tənzimləyir.

## 2. Lotereyanın şərtləri.

2.1 Lotereya və lotereya üzrə uduşların verilməsi (ödənilməsi) lotereyanın şərtləri ilə müəyyən edilmiş qaydada və müddətdə həyata keçirilməlidir.

2.2 Lotereyanın şərtlərində aşağıdakılar göstərilməlidir:

2.2.1 lotereya təşkilatçısının adı, ona verilmiş vergi ödəyicisinin eyniləşdirmə nömrəsi və olduğu yer;

2.2.2 lotereyanın adı və keçirilmə forması, o cümlədən “stimullaşdırıcı lotereya” sözləri;

2.2.3 lotereyada iştirak hüququnun əldə edilməsi yerləri, qaydası və müddəti;

2.2.4 lotereyada iştirak hüququnun təsbit olunması forması (lotereya bileti və ya ona bərabər tutulan digər məlumat daşıyıcısı ilə) və onun əlamətlərinin təsviri;

2.2.5 satışı lotereya ilə stimullaşdırılan malın satışı (işin görülməsi, xidmətin göstərilməsi) üçün xüsusi razılıq (lisenziya) tələb olunduqda, müvafiq fəaliyyət növünün adı, onun həyata keçirilməsinə verilmiş xüsusi razılığın (lisenziyanın) qeydiyyat nömrəsi, verilmə tarixi, qüvvədə olma müddəti və onu verən orqanın adı;

2.2.6 lotereyanın (hər tirajın) uduş fonduna daxil olan hər bir uduşun adı və miqdarı, yaxud yalnız pul vəsaitlərindən ibarət olan uduş fondunun uduşlara bölgüsü aparılmadan ümumi məbləği;

2.2.7 tirajlı lotereyanın hər tirajının uduş fondunun oynanılması tarixi;

2.2.8 uduş fondunun oynanılması qaydası;

2.2.9 uduşlu lotereya biletlərinin və ya uduşların verilməsi (ödənilməsi) üçün zəruri olduğu halda lotereya biletlərinə bərabər tutulan digər məlumat daşıyıcılarının lotereyanın təşkilatçısı tərəfindən qəbulu, habelə uduşların verilməsi (ödənilməsi) qaydası və müddəti.

2.3 Tirajlı lotereyanın şərtlərində qeyri-pul uduşlarının əvəzinə onların dəyərinin pul ekvivalentinin ödənilməsi imkanı nəzərdə tutula bilər. Bu halda, tirajlı lotereyanın şərtlərində hər bir qeyri-pul uduşun dəyərinin pul ekvivalenti göstərilməlidir.

2.4 Lotereyanın təşkilatçısı lotereyalar haqqında qanunvericiliyə zidd olmayan digər müddəaları da lotereyanın şərtlərinə daxil edə bilər.

2.5 Lotereyanın şərtləri lotereya təşkilatçısının rəhbəri tərəfindən imzalanmalı və möhürü ilə təsdiq edilməlidir.

2.6 Satışı lotereya ilə stimullaşdırılan malın (işin, xidmətin) qiymətinin ödənilməsi istisna olmaqla, lotereyada iştirak hüququnun əldə edilməsi üçün haqqın ödənilməsi barədə müddəanın lotereyanın şərtlərinə daxil edilməsinə yol verilmir.

3. Lotereya biletlərinin (onlara bərabər tutulan digər məlumat daşıyıcılarının) hazırlanmasına və rekvizitlərinə dair tələblər.

3.1 Tirajlı lotereyanın lotereya biletlərində aşağıdakı rekvizitlər göstərilməlidir:

3.1.1 lotereya təşkilatçısının adı və olduğu yer;

3.1.2 lotereyanın adı və keçirilmə forması, o cümlədən “stimullaşdırıcı lotereya” sözləri;

3.1.3 lotereya biletinin sıra nömrəsi və seriyası (olduqda);

3.1.4 tirajın uduş fondunun oynanılması tarixi (lotereya bileti ilə bir neçə tirajın uduş fondlarının oynanılmasında iştirak hüququnun təsbit olunduğu hallar istisna olmaqla);

3.1.5 lotereya iki və daha artıq sayda tirajdan ibarət olduqda, lotereya biletinin istifadə edildiyi tirajın sıra nömrəsi (lotereya bileti ilə bir neçə tirajın uduş fondlarının oynanılmasında iştirak hüququnun təsbit olunduğu hallar istisna olmaqla);

3.1.6 uduşlu lotereya biletlərinin lotereyanın təşkilatçısı tərəfindən qəbulu, habelə uduşların verilməsi (ödənilməsi) qaydası və müddəti;

3.1.7 lotereya biletlərini hazırlamış təşkilatın adı, ona verilmiş bütün növ qiymətli kağız blanklarının hazırlanması və satışı fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) qeydiyyat nömrəsi və verilmə tarixi.

3.2 Ani lotereyanın lotereya biletlərində aşağıdakı rekvizitlər göstərilməlidir:

3.2.1 lotereya təşkilatçısının adı və olduğu yer;

3.2.2 lotereyanın adı və keçirilmə forması, o cümlədən “stimullaşdırıcı lotereya” sözləri;

3.2.3 lotereya biletinin sıra nömrəsi və seriyası (olduqda);

3.2.4 uduş fondunun oynanılması qaydası;

3.2.5 uduşlu lotereya biletlərinin lotereyanın təşkilatçısı tərəfindən qəbulu, habelə uduşların verilməsi (ödənilməsi) qaydası və müddəti;

3.2.6 lotereya biletini hazırlamış təşkilatın adı, ona verilmiş bütün növ qiymətli kağız blanklarının hazırlanması və satışı fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) qeydiyyat nömrəsi və verilmə tarixi.

3.3 Lotereya biletlərində göstərilən məlumatlar həmin lotereyanın şərtlərində göstərilən məlumatlara uyğun olmalıdır.

3.4 Lotereyanın təşkilatçısı lotereyalar haqqında qanunvericiliyə və lotereyanın şərtlərinə zidd olmayan digər müddəaları da lotereya biletlərində yerləşdirə bilər.

3.5 Lotereya biletləri (onlara bərabər tutulan digər məlumat daşıyıcıları) onların istifadə edildiyi lotereyanın (tirajın) eyniləşdirilməsi, həmçinin onların uduşlu olub-olmamasının müəyyən edilməsi üçün kifayət qədər əlamətlərə malik olmalıdırlar.

3.6 Lotereya biletləri bütün növ qiymətli kağız blanklarının hazırlanması və satışı fəaliyyətinə xüsusi razılığa (lisenziyaya) sahib olan təşkilatlar tərəfindən hazırlanmalıdır.

## 4. Lotereyanın keçirilməsi barədə məlumatın Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə bildirilməsi.

4.1 Lotereyanın təşkilatçısı lotereyanın başlanmasına azı 20 (iyirmi) iş günü qalmış Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə (bundan sonra - QKDK) aşağıdakıları təqdim etməlidir:

4.1.1 lotereyanın keçirilməsi barədə bildirişi. Bildirişdə lotereya təşkilatçısının adı və olduğu yer, lotereyanın adı və keçirilmə forması göstərilməlidir;

4.1.2 lotereyanın şərtlərini;

4.1.3 lotereyada istifadəsi nəzərdə tutulduğu halda, lotereya biletinin nümunəsini;

4.1.4 lotereya təşkilatçısının dövlət qeydiyyatı haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surətini;

4.1.5 lotereya təşkilatçısının vergi orqanları tərəfindən uçota alınması haqqında sənədin surətini;

4.1.6 lotereya digər şəxsin tapşırığı ilə keçirildiyi halda, bu barədə tapşırıq müqaviləsinin lotereyanın keçirilməsinə vəkalət verən şəxs tərəfindən təsdiq edilmiş surətini.

4.2 Lotereyanın təşkilatçısı QKDK-ya təqdim etdiyi sənədlərdə olan məlumatların tamlığına və düzgünlüyünə görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

4.3 Bu Qaydaların 4.1-ci bəndində göstərilən sənədlər QKDK-ya təqdim edildiyi tarixdən etibarən 15 (on beş) iş günündən gec olmayaraq o, lotereyanın şərtlərində

göstərilən müddəaların aydınlaşdırılmasını və ya onlara konkretləşdirici müddəaların əlavə edilməsini, habelə təqdim olunmuş digər sənədlərdə aşkar edilmiş nöqsanların aradan qaldırılmasını lotereyanın təşkilatçısından tələb edə, yaxud aşağıdakı əsaslarla lotereyanın keçirilməsini qadağan edə bilər:

4.3.1 bu Qaydaların 4.1-ci bəndində göstərilən sənədlər QKDK-ya tam şəkildə təqdim edilmədikdə;

4.3.2 təqdim olunmuş sənədlərə lotereyalar haqqında qanunvericiliyin tələblərinə cavab verməyən və ya natamam, qeyri-dürüst, yaxud təhrif olunmuş məlumatlar daxil edildikdə;

4.3.3 lotereyanın təşkilatçısı, onun tərəfindən keçirilən lotereyanın dayandırıldığı zaman digər lotereyanın keçirilməsi ilə bağlı QKDK-ya müraciət etdikdə;

4.3.4 lotereya təşkilatçısının keçirdiyi lotereyaya məhkəmə tərəfindən xitam verildiyi tarixdən 6 (altı) aydan az vaxt keçdikdə.

4.4 Təqdim olunmuş sənədlərə QKDK-da baxılan zaman lotereyanın təşkilatçısı tərəfindən onlara əlavələr və (və ya) dəyişikliklər edildikdə, bu Qaydaların 4.3-cü bəndində göstərilən müddətin axımı həmin əlavələrin və (və ya) dəyişikliklərin QKDK-ya təqdim edildiyi tarixdən başlanır.

4.5 Lotereyanın keçirilməsi QKDK tərəfindən qadağan olunmadıqda, lotereyanın təşkilatçısı lotereyanı keçirmək hüququnu əldə edir.

4.6 Lotereyanın təşkilatçısı lotereyanın keçirilməsinin qadağan edilməsindən məhkəmə qaydasında şikayət edə bilər.

4.7 Keçirilməsi qadağan olunmuş, habelə keçirilməsinə hüquq əldə olunmamış lotereyaların keçirilməsinə və reklamına yol verilmir.

4.8 Lotereyanın təşkilatçısı lotereyanı keçirmək hüququnu əldə etdikdə, lotereya başlamazdan əvvəl onun şərtlərini kütləvi informasiya vasitəsi ilə elan etməlidir.

4.9 Lotereyanın təşkilatçısı satışı lotereya ilə stimullaşdırılan malı (işi, xidməti) əldə etmək, habelə lotereyada iştirak etmək barədə təkliflərdə, o cümlədən uduş əldə etmək imkanının ifadə olunduğu təkliflərdə lotereya şərtlərinin və ya onlarla tanış olmaq üçün mümkün olan yerlərin göstərilməsini, yaxud bu barədə məlumatı əldə etmək üçün istinadın verilməsini təmin etməlidir.

## 5. Lotereyanın şərtlərinə əlavələrin və (və ya) dəyişikliklərin edilməsi.

5.1 Lotereyanın təşkilatçısı lotereyanı keçirmək hüququnu əldə etdikdən sonra lotereyanın şərtlərinə əlavələri və (və ya) dəyişiklikləri yalnız QKDK-nın icazəsi ilə edə bilər.

5.2 Lotereyanın şərtlərinə əlavələrin və (və ya) dəyişikliklərin edilməsinə icazə almaq üçün lotereyanın təşkilatçısı QKDK-ya aşağıdakıları təqdim etməlidir:

5.2.1 lotereyanın şərtlərinə əlavələrin və (və ya) dəyişikliklərin edilməsinə icazənin alınması üçün ərizəni. Ərizədə lotereya təşkilatçısının adı, lotereyanın adı və keçirilmə forması göstərilməlidir;

5.2.2 lotereyanın şərtlərinə əlavələrin və (və ya) dəyişikliklərin mətnini.

5.3 Lotereyanın şərtlərinə əlavələrin və (və ya) dəyişikliklərin mətni lotereya təşkilatçısının rəhbəri tərəfindən imzalanmalı və möhürü ilə təsdiq edilməlidir.

5.4 Bu Qaydaların 5.2-ci bəndində göstərilən sənədlər QKDK-ya təqdim edildiyi tarixdən etibarən 5 (beş) iş günündən gec olmayaraq o, lotereyanın şərtlərinə əlavələrin və (və ya) dəyişikliklərin edilməsinə icazənin verilməsi və ya bundan imtina haqqında qərar qəbul edib, bu barədə lotereyanın təşkilatçısına məlumat təqdim etməlidir.

5.5 QKDK lotereyanın şərtlərinə əlavələrin və (və ya) dəyişikliklərin edilməsinə icazənin verilməsindən aşağıdakı əsaslarla imtina edə bilər:

5.5.1 bu Qaydaların 5.2-ci bəndində göstərilən sənədlər QKDK-ya tam şəkildə təqdim edilmədikdə;

5.5.2 QKDK-ya təqdim olunmuş sənədlərə lotereyalar haqqında qanunvericiliyə zidd olan, o cümlədən lotereya iştirakçılarının hüquqlarını məhdudlaşdıran, lotereyanın formasını dəyişən, yayılmış lotereya biletlərinin (onlara bərabər tutulan digər məlumat daşıyıcılarının) iştirak etdiyi tirajın uduş fondunun tərkibini dəyişən (uduşların artırılması halları istisna olmaqla), ani lotereyanın uduş fondunun tərkibini dəyişən, yayılmış lotereya biletlərinin (onlara bərabər tutulan digər məlumat daşıyıcılarının) iştirak etdiyi tirajın və ya ani lotereyanın uduş fondunun həcmini azaldan əlavələr və (və ya) dəyişikliklər, habelə natamam və ya qeyri-dürüst müddəalar daxil edildikdə.

5.6 Lotereyanın şərtlərinə əlavələr və (və ya) dəyişikliklər lotereyanın (tirajın) uduş fondunun oynanılmasına azı 10 (on) iş günü qalana qədər edilə bilər.

5.7 Lotereyanın təşkilatçısı lotereyanın şərtlərinə edilmiş əlavələri və (və ya) dəyişiklikləri lotereyanın (tirajın) uduş fondunun oynanılmasına azı 7 (yeddi) iş günü qalmış kütləvi informasiya vasitəsi ilə elan etməlidir.

## 6. Tiraj komissiyası.

6.1 Tirajlı lotereyanın hər tirajının uduş fondunun oynanılmasına nəzarət tiraj komissiyası tərəfindən həyata keçirilir.

6.2 Tiraj komissiyasının heyəti lotereyanın təşkilatçısı tərəfindən müəyyən edilir.

6.3 Tiraj komissiyası üzvlərinin sayı 5 (beş) nəfərdən az olmamaq şərti ilə tək olmalıdır.

6.4 Tiraj komissiyasının ən azı bir üzvü kütləvi informasiya vasitəsinin və ya ictimai təşkilatın nümayəndəsi olmalıdır.

6.5 Lotereya təşkilatçısının (satışı lotereya ilə stimullaşdırılan malın (işin, xidmətin) satıcısının) vəzifəli şəxslərinin, onların ailə üzvlərinin (ər, arvad, valideynlər, övladlar və övladlığa götürülmüş şəxslər, onların ərləri və arvadları, bacılar, qardaşlar, bacı və qardaş övladları, ər-arvadların bacıları, qardaşları və valideynləri, bacıların ərləri və qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, qəyyumlar və qəyyumluğa götürülənlər) tiraj komissiyasının tərkibinə daxil edilməsinə yol verilmir.

6.6 Lotereyanın təşkilatçısı tirajlı lotereyanın (hər tirajın) uduş fondunun oynanılmasına azı 3 (üç) iş günü qalmış tiraj komissiyasının üzvləri haqqında aşağıdakı məlumatı QKDK-ya təqdim etməlidir:

6.6.1 lotereya təşkilatçısının adı;

6.6.2 lotereyanın adı və keçirilmə forması;

6.6.3 tirajın nömrəsi (lotereya bir neçə tirajdan ibarət olduqda) və uduş fondunun oynanılması tarixi;

6.6.4 tiraj komissiyasının hər bir üzvünün adı, atasının adı, soyadı və işlədiyi yer.

6.7 Tiraj komissiyası qanunvericiliyin tələbləri pozulmaqla yaradıldıqda, QKDK tiraj komissiyasının tərkibinə dəyişikliklərin edilməsi barədə lotereyanın təşkilatçısına icrası məcburi olan göstəriş verir.

6.8 Tiraj komissiyasının sədri tiraj komissiyasının üzvləri tərəfindən adi səs çoxluğu ilə seçilir.

6.9 Tiraj komissiyasının qərarları adi səs çoxluğu ilə qəbul edilir. Qərar qəbul edilərkən tiraj komissiyasının üzvü bitərəf qala bilməz.

6.10 Tirajlı lotereyanın hər tirajının uduş fondunun oynanılmasının nəticələri tiraj komissiyasının üzvləri tərəfindən imzalanan aktla təsdiq olunur.

6.11 Uduş fondunun oynanılmasının nəticələri haqqında aktda aşağıdakılar göstərilməlidir:

6.11.1 lotereya təşkilatçısının adı;

6.11.2 lotereyanın adı və keçirilmə forması;

6.11.3 tirajın sıra nömrəsi (lotereya bir neçə tirajdan ibarət olduqda) və onun uduş fondunun oynanılması tarixi;

6.11.4 uduş fondunun oynanılmasının nəticələrinə görə uduşlu lotereya biletlərinin nömrələri və seriyaları (olduqda), yaxud uduşlu lotereya biletlərini (onlara bərabər tutulan digər məlumat daşıyıcılarını) və ya onların sahiblərini eyniləşdirmək imkanını verən göstəricilər, habelə onların hər birinə düşən uduşlar;

6.11.5 tiraj komissiyasının hər bir üzvünün adı, atasının adı, soyadı və imzası.

6.12 Uduş fondunun oynanılmasının nəticələri haqqında akt lotereya təşkilatçısının rəhbəri tərəfindən imzalanmalı və möhürü ilə təsdiq edilməlidir.

6.13 Uduş fondunun oynanılması zamanı lotereyanın şərtlərinin pozulması aşkar edildikdə bu, uduş fondunun oynanılmasının nəticələri haqqında aktda qeyd edilir.

6.14 Tiraj komissiyası aşkar olunmuş pozuntular barədə uduş fondunun oynanılması tarixindən etibarən 3 (üç) iş günündən gec olmayaraq QKDK-ya və lotereyanın təşkilatçısına məlumat verməlidir.

## 7. Lotereyanın uduş fondunun oynanılmasına, uduşların verilməsinə (ödənilməsinə) və məlumatların açıqlanmasına dair tələblər.

7.1 Lotereyanın (tirajın) uduş fondu lotereyanın (tirajın) uduş fondunun oynanılması başlayanadək, lotereya təşkilatçısının hesabına formalaşdırılır.

7.2 Lotereyanın uduş fondu yalnız lotereya təşkilatçısının lotereyanın iştirakçıları qarşısında daşıdığı öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə istifadə oluna bilər.

7.3 Tirajlı lotereyanın uduş fondu aid olduğu tirajda tam həcmdə oynanılmalıdır.

7.4 Tirajlı lotereyanın hər tirajının uduş fondunun oynanılmasının nəticələri həmin lotereyanın (tirajın) uduş fondu oynanıldığı tarixdən etibarən 5 (beş) iş günündən gec olmayaraq açıqlanmalıdır.

7.5 Tirajlı lotereyanın hər tirajının uduş fondunun oynanılmasının nəticələrinin açıqlanması həmin tiraj üzrə uduşlu lotereya biletlərinin nömrələrinin və seriyalarının (olduqda), yaxud uduşlu lotereya biletlərini (onlara bərabər tutulan digər məlumat daşıyıcılarını) və ya onların sahiblərini eyniləşdirmək imkanı verən göstəricilərin, habelə onların hər birinə düşən uduşların kütləvi informasiya vasitəsilə elan edilməsi yolu ilə həyata keçirilir.

7.6 Lotereyanın təşkilatçısı uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərini (onlara bərabər tutulan digər məlumat daşıyıcılarını) lotereyanın şərtlərində göstərilmiş qaydada və müddətdə lotereya iştirakçılarının ilk tələbi ilə qəbul etməlidir.

7.7 Tirajlı lotereyada uduşlu lotereya biletlərinin (onlara bərabər tutulan digər məlumat daşıyıcılarının) lotereyanın təşkilatçısı tərəfindən qəbulu müddəti həmin lotereyanın (tirajın) uduş fondu oynanıldığı tarixdən etibarən 7 (yeddi) iş günündən gec olmayaraq başlamalı və sahibi tərəfindən istifadə müddəti məhdud olan uduşun təyinatı üzrə istifadəsini təmin etmək üçün daha qısa müddətin tətbiqi zərurəti olmadıqda, 90 (doxsan) iş günündən az olmamalıdır.

7.8 Ani lotereyada uduşlu lotereya biletlərinin (onlara bərabər tutulan digər məlumat daşıyıcılarının) lotereyanın təşkilatçısı tərəfindən qəbulu müddəti onların yayımı başlandığı tarixdən başlamalı və sahibi tərəfindən istifadə müddəti məhdud olan uduşun təyinatı üzrə istifadəsini təmin etmək üçün daha qısa müddətin tətbiqi

zərurəti olmadıqda, lotereya başa çatdığı tarixdən etibarən 90 (doxsan) iş günündən az olmamalıdır.

7.9 Uduş, lotereyanın təşkilatçısı tərəfindən uduşlu lotereya bileti (ona bərabər tutulan digər məlumat daşıyıcısı) qəbul edildiyi tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq sahibinə verilməlidir (ödənilməlidir).

7.10 Lotereyanın şərtlərinə görə uduşların verilməsi (ödənilməsi) üçün lotereya biletlərinə bərabər tutulan digər məlumat daşıyıcılarının lotereyanın təşkilatçısına təqdim edilməsi tələb olunmursa, uduş, onun verilməsi (ödənilməsi) barədə lotereya iştirakçısının tələbi irəli sürüldüyü tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq verilməlidir (ödənilməlidir).

7.11 Lotereyanın şərtlərinə görə uduşların verilməsi (ödənilməsi) üçün lotereya biletlərinə bərabər tutulan digər məlumat daşıyıcılarının lotereyanın təşkilatçısına təqdim edilməsi və ya uduşun verilməsi (ödənilməsi) barədə tələbin lotereyanın iştirakçısı tərəfindən irəli sürülməsi tələb olunmursa, uduş, uduş fondu oynanıldığı (ani lotereyada - uduşun müəyyən edildiyi) tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq verilməlidir (ödənilməlidir).

7.12 Tirajlı lotereyanın şərtlərində nəzərdə tutulduğu halda, lotereyanın təşkilatçısı lotereya iştirakçısının yazılı tələbi ilə qeyri-pul uduşunun dəyərinin pul ekvivalentini ona ödəməlidir.

7.13 Uduşu ödənilmiş lotereya biletləri lotereyanın təşkilatçısı tərəfindən 3 (üç) il ərzində saxlanmalıdır.

7.14 Uduş fondunun oynanılması zamanı lotereyanın şərtlərinin pozulması barədə tiraj komissiyasından məlumat aldıqda, lotereyanın təşkilatçısı QKDK tərəfindən müvafiq qərar qəbul edilənədək uduşların verilməsini (ödənilməsini) dayandırmalıdır.

7.15 Lotereyanın təşkilatçısı ani lotereyanın başa çatması barədə məlumatı həmin lotereya başa çatdığı tarixdən etibarən 3 (üç) iş günündən gec olmayaraq kütləvi informasiya vasitəsilə elan etməlidir.

## 8. Lotereyanın dayandırılması və onun keçirilməsinə xitam verilməsi.

8.1 Lotereyalar haqqında qanunvericiliyin tələblərinin və ya lotereyanın şərtlərinin lotereyanın təşkilatçısı tərəfindən pozulması aşkar edildikdə, QKDK həmin pozuntuların aradan qaldırılması üçün lotereyanın təşkilatçısına xəbərdarlıq edə və ya lotereyanın dayandırılması barədə qərar qəbul edə bilər.

8.2 Lotereyanın təşkilatçısı lotereyanın dayandırılması barədə bildirişi aldıqdan dərhal sonra bu barədə məlumatı kütləvi informasiya vasitəsi ilə elan etməli və bildirişi aldığı tarixdən etibarən 20 (iyirmi) iş günü ərzində aşkar edilmiş pozuntuları aradan qaldırıb, bu barədə QKDK-ya məlumat verməlidir.

8.3 QKDK pozuntuların aradan qaldırılması barədə lotereyanın təşkilatçısından məlumat aldıqda, 5 (beş) iş günündən gec olmayaraq lotereyanın bərpa edilməsi və ya aradan qaldırılmamış pozuntular göstərilməklə lotereyanın dayandırılmasının qüvvədə saxlanılması barədə lotereyanın təşkilatçısına yazılı bildiriş göndərir.

8.4 Lotereyanın təşkilatçısı aşkar olunmuş pozuntuları bu Qaydaların 8.2-ci bəndində göstərilən müddətdə aradan qaldırmadıqda və ya onların aradan qaldırılması barədə məlumatı təqdim etmədikdə, QKDK lotereyanın keçirilməsinə xitam verilməsi barədə məhkəmədə vəsatət qaldıra bilər.

8.5 QKDK aşağıdakı əsaslarla lotereyanın keçirilməsinə xitam verə bilər:

8.5.1 lotereyanın təşkilatçısı lotereyanın keçirilməsinə xitam verilməsi barədə ərizə ilə QKDK-ya müraciət etdikdə;

8.5.2 lotereyanın təşkilatçısı ləğv edildikdə;

8.5.3 məhkəmənin qərarı olduqda.

8.6 Lotereyanın təşkilatçısı lotereyanın keçirilməsinə xitam verilməsi barədə bildirişi aldıqda, bu barədə məlumatı kütləvi informasiya vasitəsi ilə dərhal elan etməlidir.

8.7 Lotereyanın dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi barədə lotereyanın təşkilatçısı tərəfindən verilən elanda aşağıdakılar göstərilməlidir:

8.7.1 lotereya təşkilatçısının adı;

8.7.2 lotereyanın adı və keçirilmə forması;

8.7.3 lotereyanın dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi haqqında qərarın qəbul edildiyi tarix və onu qəbul edən orqanın adı;

8.7.4 lotereyanın dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi haqqında qərarın qəbul edilməsi üçün əsas;

8.7.5 keçirilməsi baş tutmamış tirajın nömrəsi və onun uduş fondunun oynanılması tarixi (tirajlı lotereyalar üçün).

8.8 Lotereyanın keçirilməsi dayandırıldıqda və ya ona xitam verildikdə, həmin lotereyada iştirak etmək barədə istənilən formada təkliflərin edilməsi qadağandır.

8.9 Lotereyanın dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi lotereya təşkilatçısını oynanılmış uduşların verilməsi (ödənilməsi) vəzifəsindən azad etmir.

## 9. Hesabatların QKDK-ya təqdim edilməsi.

9.1 Lotereyanın təşkilatçısı aşağıdakıları QKDK-ya təqdim etməlidir:

9.1.1 tirajlı lotereyada tirajın uduş fondunun oynanılması başa çatdığı tarixdən etibarən 5 (iş) iş günündən gec olmayaraq - tirajın uduş fondunun oynanılmasının nəticələri haqqında hesabatı və uduş fondunun oynanılmasının nəticələri haqqında tiraj komissiyası tərəfindən tərtib olunmuş aktın bir nüsxəsini;

9.1.2 ani lotereyada uduşların verilməsi (ödənilməsi) müddəti başa çatdığı tarixdən etibarən 5 (beş) iş günündən gec olmayaraq - ani lotereyada verilmiş (ödənilmiş) uduşlar haqqında hesabatı.

9.2 Tirajın uduş fondunun oynanılmasının nəticələri haqqında hesabatda aşağıdakılar göstərilməlidir:

9.2.1 lotereya təşkilatçısının adı;

9.2.2 lotereyanın adı və keçirilmə forması;

9.2.3 tirajın sıra nömrəsi (lotereya bir neçə tirajdan ibarət olduqda) və onun uduş fondunun oynanılması tarixi;

9.2.4 lotereya biletlərinin (onlara bərabər tutulan digər məlumat daşıyıcılarının) uduşlu olduğunu müəyyən etmək imkanı verən ardıcıl göstəricilər;

9.2.5 tiraj üzrə uduşlu lotereya biletlərinin nömrələri (seriyaları), yaxud uduşlu lotereya biletlərini (onlara bərabər tutulan digər məlumat daşıyıcılarını) və ya

onların sahiblərini eyniləşdirmək imkanı verən digər göstəricilər və onların hər birinə düşən uduşlar;

9.2.6 tirajın uduş fondunun oynanılmasının nəticələrinin dərc olunduğu kütləvi informasiya vasitəsinin adı və buraxılış tarixi.

9.3 Ani lotereyada verilmiş (ödənilmiş) uduşlar haqqında hesabatda aşağıdakılar göstərilməlidir:

9.3.1 lotereya təşkilatçısının adı;

9.3.2 lotereyanın adı və keçirilmə forması;

9.3.3 uduşu verilmiş (ödənilmiş) lotereya biletlərinin nömrələri (seriyaları), yaxud lotereya biletlərini (onlara bərabər tutulan digər məlumat daşıyıcılarını) və ya onların sahiblərini eyniləşdirmək imkanı verən göstəricilər və onların hər biri üzrə verilmiş (ödənilmiş) uduş.

9.4 Hesabatlar lotereya təşkilatçısının rəhbəri tərəfindən imzalanmalı və möhürü ilə təsdiq edilməlidir.

## 10. Məsuliyyət.

Bu Qaydaların müddəalarına riayət etməyən şəxslər mövcud qanunvericiliyə uyğun olaraq məsulliyyət daşıyırlar.

## 11. Qüvvəyə minməsi.

Bu Qaydalar təsdiq edildiyi tarixdən qüvvəyə minir.